2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 sentyabr 2015-ci il tarixli, 01 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 18 sentyabr 2015-ci il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 50 saylı Abşeron-Qobustan seçki dairəsindən deputatlığa namizədliyi Musavat Partiyasından irəli sürülmüş Soltanlı Səxavət Şirsoltan oğlunun Qobustan rayonunun Xılmilli kəndi ərazisində namizədin müdafiəsi üçün imza toplayan şəxslərə maneçilik törədilməsi ilə bağlı 2015-ci il sentyabrın 16-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq aşağıdakıları müəyyən etdim:

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq müraciət ekspert qrupunun üzvü tərəfindən ilkin olaraq nəzərdən keçirilərkən müəyyən edilmişdir ki, müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdur.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, ekspert qrupunun üzvü həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair rəy verməlidir.

Göstərilənlərə əsasən müraciət aidiyyəti üzrə araşdırılması üçün 50 saylı Abşeron-Qobustan seçki dairəsinin dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 8.6-cı bəndinə əsasən **rəyə gəldim:**

1. Deputatlığa namizəd Soltanlı Səxavət Şirsoltan oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 sentyabr 2015-ci il tarixli 01 saylı müraciəti aidiyyət qaydalarının pozulması ilə daxil olduğundan araşdırılması üçün aidiyyəti üzrə 50 saylı Abşeron-Qobustan seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov